# MƏKTƏB MÜHİTİNDƏ YENİYETMƏLƏRDƏ GENDER ROLLARININ FORMALAŞMASINA MÜƏLLİMLƏRİN BİR ROL MODELİ KİMİ PSİXOLOJİ TƏSİRİ

**Ülviyyə Nəhmətova,**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: remaln@mail.ru

**Rəyçilər***:* *psixol.ü.elm.,dok.* dos. E.B. Bəylərov,
*psixol.ü.fəls.dok.* Ü.A. Əfəndiyeva

***Açar sözlər:*** *yeniyetmə, gender rolları, məktəb, qadın müəllim modeli, kişi müəllim modeli, rəhbərlik üslubları*
***Ключевые слова:*** *подросток, гендерные роли, школа, модель учителя-женщины, модель учителя-мужчины, стили лидерства*
***Key words:*** *teenager, gender roles, school, female teacher model, male teacher model, leadership styles*

Yeniyetməlik dövrü insan şəxsiyyətinin formalaşmasında vacib bir mərhələ kimi əsas rol oynayır. Belə ki, bu dövrdə yeniyetmədə həm fizioloji (səsin dəyişməsi, cinsi inkişaf və s.), həm də psixoloji dəyişikliklər (özünüqiymətləndirmənin formalaşması, mənlik şüurunun inkişafı və s.) özünü göstərir. Yeniyetməlik dövrü təxminən 10-11 yaşdan 14-15 yaşa qədər olan dövrü əhatə edir (6, 298). Bu yaş dövründə yeniyetmələrdə mənlik şüuru, özünüqiymətləndirmə, özünüdərketmə ilə yanaşı, həm də cinslərinə müvafiq gender rolları formalaşır. Gender rolları dedikdə, qadın və kişi üçün gözlənilən davranış tərzi nəzərdə tutulur.

Bu gün cəmiyyəti narahat edən məsələlərdən biri də ən çətin yaş dövrlərindən biri olan yeniyetməlik yaşı dövründə yeniyetmələri hərtərəfli bir şəxsiyyət kimi tərbiyə etməkdir. Hərtərəfli tərbiyədən bəhs edərkən cinsi tərbiyədən danışmamaq olmaz. Ən azı ona görə ki, cəmiyyətin, xalqın mədəni səviyyəsindən, əxlaqi, mənəvi dəyərlərindən danışarkən ilk növbədə qadın - kişi, oğlan-qız münasibətləri, ictimai həyatda, ailədə onların rolu nəzərdə tutulur. Ailədə, məktəbdə, kollektivdə, bütövlükdə cəmiyyətdə yalnız hansısa abstrakt vətəndaş yox, ilk növbədə gələcəyin qadın və kişisi, ata və anası formalaşır. Tərbiyənin başlıca vəzifələrindən biri də yeniyetmələrə və gənclərə onların sabahın kişisi və ya qadını, ailə başçısı olacağını anlatmaqdan ibarətdir.

Vaxtilə N.Q. Çernışevski yazırdı ki, hələ körpəlikdən ictimai həyatda iştirak etməyən, müstəqillik vərdişi qazanmayan oğlan böyüdükdən sonra kişi cinsinə aid olsa da əsl kişi ola bilmir. Onda kişiyə aid olan yalnız bığ və saqqalını qırxmaqdır. Bu fikirdən də aydın olur ki, cəmiyyətə yararlı əsl kişi və qadın yetişdirmək istəyiriksə, ilk növbədə yeniyetmə oğlan və qızlarda mentalitetimizə uyğun gender rolları formalaşdırmalıyıq.

Yeniyetmələrdə oğlan və qız münasibətlərini, onlarda əsl qadına (femin) və kişiyə (maskulin) xas olan keyfiyyətləri formalaşdırmaq xeyli mürəkkəb bir prosesdir. Çünki burada çoxsaylı amillər: milli xüsusiyyətlər, adət-ənənə, ictimai mühit, tarixi şərait, iqtisadi vəziyyət, coğrafi şərait, ailə, məktəblə yanaşı hər cinsin özünəməxsus bioloji xüsusiyyətləri, irsi amillər, fərdi xüsususiyyətlər birlikdə təsir edir (4, 93).

İctimai bir təşkilat olaraq məktəb də, yeniyetmələrdə gender rollarının formalaşdırılmasında təsirli rol oynayır. Lakin məktəbin ailənin yeniyetmələrdə formalaşdırdığı gender rollarını aradan qaldıraraq onlara yeni bir gender rollarını yükləməsi tam mümkün deyildir. Bu məzmunda məktəb, ailənin bir davamı olaraq ənənənin modernləşdirilməsi ölçüsündə düşünülə bilər. Belə ki, məktəbdə davranış etalonu kimi seçilmiş müəllimlər mənsub olduqları millətin mentalitetini daha dolğun şəkildə nümayiş etdirirlər. Onlar özləri də bir ata və ana modelidir. Onların rəftarı, davranış tərzi, danışığı, hətta geyim tərzi belə yeniyetmə oğlan və qızlarda gender rollarını formalaşdıran əsl nümunədir. Belə ki, kişi müəllimlər instrumental (problemi həll edən), qadın müəllimlər isə ekspressiv (qayğıkeş) gender rollarını ifa edirlər.

İnsanların əxlaqi keyfiyyətlərinə, onların davranış normalarına, bir-birilə qarşılıqlı münasibətlərinə maraq yeniyetmələrdə əxlaqi idealların formalaşması ilə nəticələnir. Müəllimlər bu cəhətə xüsusi diqqət yetirməlidirlər. Yeniyetmələrdə əxlaqi ideallarin formalaşması onların özünütərbiyəsi və onlarda cinslərinə müvafiq gender rollarının formalaşması baxımından xüsusilə böyük əhəmiyyətə malikdir.

Yeniyetmə oğlan və qızlar istəyirlər ki, ətrafdakı adamlar, xüsusilə valideynlər, müəllimlər onlara kiçik uşaq kimi deyil, yaşlı adam kimi yanaşsınlar. Məhz buna görə də onlar müstəqilliyə meyl edir, hətta öz həyatlarının müəyyən sahəsini yaşlıların müdaxiləsindən qorumağa çalışırlar. Onlar müşahidə etdikləri cisim və hadisələri də öz nöqteyi-nəzərlərinə görə qiymətləndirməyə başlayırlar. Bu əlamətlər əsasında yeniyetmə üçün səciyyəvi olan ən başlıca xüsusiyyətlərdən biri - yaşlılıq hissi və meyli formalaşır (5, 199). Belə ki, yeniyetmə qızlar qadına xas (femin), yeniyetmə oğlanlar isə kişiyə xas (maskulin) xüsusiyyətləri mənimsəyərək özlərini yaşlı kimi aparırlar.

Müəllim-şagird ünsiyyətinin tədqiqi göstərir ki, müəllimin davranışı, mimikası, jestləri, intonasiyası, hərəkəti və s. kompleks siqnal olmaqla, birgə fəaliyyət zamanı şagirdlərdə gender rollarının formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Yeniyetmə oğlan və qızların qadın və kişi müəllimlərlə münasibətlərində fərq özünü göstərir. Belə ki, oğlanlar kişi müəllimlərə qızlara nisbətən daha çox və tez-tez müraciət edirlər. Bunun bir səbəbini də psixoloqlar ailədə oğlanların ataları ilə daha yaxşı münasibətdə olmaları ilə izah edirlər. Bundan başqa, təbiətən oğlanlar kişi, qızlar isə qadın keyfiyyətlərinin daşıyıcılarıdırlar.

Yeniyetmə qızlar isə qadın müəllimlərlə daha asan ünsiyyətə girə bilirlər. Bunun səbəblərindən biri də qadın müəllimlərin qızları daha zəif və zərif hesab etmələri ilə bağlıdır.

Qadın və kişi müəllimlərin oğlan və qızları həvəsləndirmə və tənbeh etmələrində də fərq özünü göstərir. Qadın müəllimlər şagirdləri daha az tənbeh edir, daha çox həvəsləndirməyə çalışırlar. Qızları oğlanlara nisbətən az tənbeh edirlər.

Ayrı-ayrı fənlərə münasibətin formalaşmasında da qadın və kişi müəllimlərin təsiri fərqlidir. Belə ki, qadın müəllimlərin dərs dediyi siniflərdə oğlan və qızlar humanitar fənlərə daha çox maraq göstərdikləri halda, kişi müəllimlərin sinfində şagirdlər təbiət elmlərinə maraq göstərirlər.

Müəllim-şagird münasibətlərində iki cəhətə xüsusi diqqət yetirilməlidir. Müəllimlər, bir tərəfdən, təlim - tərbiyə prosesində şagirdlərin cinsi xüsusiyyətlərini, digər tərəfdən isə yeniyetmə oğlan və qızların psixologiyasının özünəməxsus cəhətlərini nəzərə almalıdırlar.

Yeniyetmə oğlan və qızların düzgün gender rollarına yiyələnməsində müəllimlərin rəftar və davranışı ilə yanaşı, həmçinin onların zahiri görünüşü, geyimi və s. böyük əhəmiyyət kəsb edir. Belə ki, qadın müəllimin kişi cinsinə məxsus geyim geyinməsi və kişiyə xas davranışı nümayiş etdirməsi yeniyetmələrin psixikasına mənfi təsir göstərir. Bu hal kişi müəllimlərdə də müşahidə edildikdə çox vaxt bu əksər yeniyetmələr tərəfindən qəbul olunmasa da, bəzi yeniyetmələr onları rol modeli olaraq görürlər.

Yeniyetmələrin qadın və kişi müəllimlərdə hansı keyfiyyətləri yüksək qiymətləndirmələri ilə bağlı apardığımız şifahi sorğuya əsasən müəyyənləşdirdik ki, yeniyetmələr kişi və qadın müəllimlərdə bilik, bacarıq və pedaqoji qabiliyyətlərlə yanaşı, həmçinin onların cinslərinə müvafiq geyinməsini, davranmasını da yüksək qiymətləndirirlər.

Yeniyetmə oğlan və qızlarda cinslərinə müvafiq gender rollarının formalaşması müəllim-şagird münasibətinin xarakteri, onların bir-birinə münasibəti, aralarındakı qarşılıqlı etimad və inamın xarakterindən də çox asılıdır. Lakin həmin qarşılıqlı münasibət sistemində aparıcı yeri, mövqeyi müəllim tutur. Yəni müəllimin həm təlim fəaliyyəti, həm də şəxsiyyətinin istiqaməti, peşəkarlığı, eləcə də əxlaqi keyfiyyəti, məsuliyyət hissi, ən başlıcası şagirdlərə münasibəti həlledici rol oynayır. Təsadüfi deyildir ki, L.N. Tolstoy bu cəhəti xüsusi olaraq qeyd edir. O, göstərirdi ki, "əgər müəllim yalnız işinə məhəbbət bəsləyirsə, onda o, yaxşı müəllim olacaq. Əgər müəllim yalnız öz şagirdlərinə məhəbbət bəsləyirsə və onları öz ataları, anaları kimi sevirsə, onda o, bütün kitabları oxumuş ancaq nə işinə, nə də şagirdlərə məhəbbəti olmayan, onları sevməyən müəllimdən yaxşı olacaq. Əgər müəllim həm öz işinə, həm də şagirdlərinə olan sevgisini, məhəbbətini birləşdirsə, onda o, kamil müəllim olacaq". Böyük mütəfəkkirin bu hik-

mətli fikrində müəllim - şagird münasibətində müsbət psixoloji iqlimin yaradılması ilk növbədə müəllimin öz işinə, öz şagirdlərinə səmimi münasibətindən, atalıq (analıq) qayğısından, həqiqi sevgi və məhəbbətindən asılıdır. Bu halda müəllim-şagird münasibətlərində əlverişli psixoloji iqlim hökm sürür və hər iki tərəfin fəaliyyətinə çox ciddi müsbət təsir göstərir (5, 479).

Müəllim-şagird münasibətlərində yeniyetmələrdə gender rollarının formalaşmasında müəllimin rəhbərlik üslubunun da böyük əhəmiyyəti var. Belə ki, kişi müəllimlər əsasən avtoritar və demokratik rəhbərlik üslubuna üstünlük verdikləri halda, qadın müəllimlər daha çox demokratik və liberal rəhbərlik üslublarına üstünlük verirlər.

Avtoritar üslublu müəllimlər daha hökmlü, ciddi, hər şeyə riayət olunmasını tələb edən, güzəştə getməyən, cinsi fərqlərə o qədər də əhəmiyyət verməyən müəllimlərdir. Bu cür müəllimlər yeniyetmə oğlan və qızlarda özünəinamsızlıq, qorxu, aqressiya ilə yanaşı, məsuliyyətlilik, intizamlılıq kimi keyfiyyətlər də formalaşdırırlar.

Demokratik üslublu müəllimlər isə yeniyetmə oğlan və qızlara fərdi yanaşır, müəyyən məsələlərin həllində onlarla məsləhətləşir, bir sözlə, onlara bir şəxsiyyət kimi yanaşır. Bu cür müəllimlər yeniyetmələrdə müstəqil fikir yürütməyi, özünənəzarəti, özgüvəni, qarşılıqlı təsir prosesində etimad və hörmət hissini formalaşdırır.

Liberal üslublu müəllimlər isə şagirdlərə həddindən artıq sərbəstlik verən, tələbkar olmayan, güzəştə gedən və onlara laqeyd və etinasız yanaşan müəllimlərdir. Bu cür müəllimlər isə yeniyetmələrdə məsuliyyətsizlik, laqeydlik, yüksək özünüqiymətləndirmə və s. kimi keyfiyyətləri formalaşdırırlar.

Əgər ailənin sosiallaşma modelində cinslə əlaqəsi olan fərqlər müəllimin davranışında da təkrar olunursa, bu zaman yeniyetmə oğlan və qızlarda gender rollarının formalaşması böyük dəstək alır (1, 8).

Cinsi rola uyğun gələn ənənəvi davranış növlərinin və gender fərqlərinin möhkəmlənməsinə təkcə müəllimin spesifik davranışı yox, həmçinin daha geniş məktəb konteksti təsir göstərir. Məktəb sistemində daha nüfuzlu vəzifələri kişilər tutur. Qadın cinsinə mənsub müəllimlər üçün daha zəif professional eyniləşmə səciyyəvidir. Məktəbin həyəti, bir qayda olaraq, cinsi seqreqasiyaya təsir edir, çünki yeniyetmə oğlan və qızlar ayrı-ayrı fəaliyyət növlərinə üstünlük verir və sinifdə vəzifələr adətən cinsi mənsubiyyətə görə bölünür. Bundan başqa, oğlanların və qızların oyun meydançasında üstünlük verdiyi oyunlar da cinsi əlamətə görə seçilir və müxtəlif formal xarakteristikalara malik olur.

Müəllimlərin davranışındakı, yaşıdların fəaliyyətindəki və müxtəlif ictimai institutlarda müəyyən edilmiş qaydalardakı adları çəkilən fərqlər yeniyetmə qız və oğlanlar arasında fərqin mövcudluğunu təsdiq edir və cinsi əlamətə görə ailədə sosiallaşmanın fərqli nəticələrini möhkəmləndirir. Beləliklə, diferensial sosiallaşması ailə ilə məhdudlaşmır və evdən geniş aləm olan məktəb yeniyetmənin bu təcrübəsinin ardıcıllığını təmin edir.

Ümumiləşdirərək deyə bilərik ki, sosiallaşma evdə və məktəbdə cinsi əlamətə görə nəzərə çarpacaq qədər seçilir və nəticədə yeniyetmə oğlanlara tədqiqat üçün daha böyük azadlıq verilir, onların müstəqilliyi, hər şeyi bilmək istəyi və özünü uğurlarda və digər rəqabət şəraitində sınaqdan keçirmələrinə həvəsləndirilir. Bu cür sosiallaşma modeli yeniyetmə oğlanlarda təcrübənin genişlənməsinə və fəallığın artmasına səbəb olur. Yeniyetmə qızların sosiallaşma prosesində onlar tədqiqata həvəsləndirilmir, fəallıq dairəsi məhdudlaşdırılır, əsasən davranışın düzgün olub-olmamasına diqqət yetirilir və ciddi nəzarət həyata keçirilir ki, bu da yeniyetmə qızların təcrübəsini çərçivəyə salır. Bir çox tədqiqatçılar göstərir ki, təcrübə qazanmaq və ətraf aləmlə qarşılıqlı əlaqədə olmaq imkanı onların koqnitiv inkişafının dərin strukturlarına təsir göstərir.

Beləliklə, yeniyetmə oğlan və qızlar mühüm dərəcədə fərqli psixoloji kontekstdə böyüyür və həmin kontekst onların sonrakı psixoloji fəaliyyətinə həlledici təsir göstərir (3, səh. 130).

Makkobi və Cekin 1974-cü ildə müxtəlif məktəblərdə apardıqları müşahidələrinə görə, qızlar nitq vərdişlərini yaxşı mənimsəyirlər, oğlanlar isə vizual - məkan və riyazi tapşırıqları uğurla həll edirlər. Digər psixoloqlar isə oğlanların riyaziyyata xüsusi meylini sosializasiyanın və cins - rol stereotiplərinin təsiri ilə izah edirlər. R.L. Xon da mahiyyətcə bu postulatlara söykənir. Belə ki, 1945 - 1951 - ci illərdə fəaliyyət göstərən qız və oğlan məktəblərində aparılan müşahidələrə görə qızlar riyaziyyatın mənimsənil-

məsi sahəsində önəmli uğurlarla seçilirdilər. Hətta onların bir çoxu riyaziyyatı özləri üçün sevimli ixtisas kimi dəyərləndirmişdilər. Lakin orta statistik nəticələrə görə qızların riyaziyyat sahəsindəki uğurları bu gün heç də ürək açan deyil. Prof. R.L. Xon məsələnin mahiyyətini gender ehkamları ilə açıqlayaraq qızların riyaziyyat məkanında aktivləşdirilməsi yollarını konseptual ölçülərlə açıqlayır və onların təhlilində, şübhəsiz ki, dünya təcrübəsinə söykənir (2, 466). Buna təsir edən amillərdən biri də qadın və kişi müəllimlərin ifa etdikləri rollardır. Belə ki, qadın müəllimlərin əksəriyyəti humanitar fənləri tədris etdiyi halda, kişi müəllimlərin çoxu dəqiq fənləri tədris edir. Buna görə də yeniyetmə oğlan və qızlar cinslərinə müvafiq modelə uyğun olaraq fəaliyyət sahələrini seçirlər.

Bu gün ölkəmizin orta məktəblərində dərs deyən müəllimlərin 80 faizdən çoxu qadınlardır. Ayrıca Bakı üzrə götürdükdə isə müəllimlərin təxminən 85 faizini zərif cinsin nümayəndələri təşkil edir. Uşaqlar evdə də daha çox anaların, ana işlədikdə isə qadın dayələrin, bağçada isə yenə qadın tərbiyəçilərin ixtiyarına verilir, onunla ünsiyyətdə olur, onlardan tərbiyə alırlar.

Məktəbdə müəllimlərin çoxunun qadın olması, daha doğrusu kişi müəllimlərin azlığının nə kimi sosial-psixoloji problemlərə yol açdığına gəldikdə, təbii ki, burda ilk öncə yeniyetmə oğlanlarda gender rolunun formalaşmasında qüsurların ortaya çıxmasına diqqət yetirmək lazım gəlir.

Bütün dərslərin qadın müəllimlər tərəfindən deyilməsi həssas oğlan uşaqlarında əks-cinsə məxsus duyğusal keyfiyyətlər formalaşdırır: Oğlanlar qadın müəllimlərdəki keyfiyyətləri götürürlər, emosional olurlar, hissləri tərəfindən idarə edilirlər. Buna görə daha çox qadın müəllimələrin dərs deməsi yetişməkdə olan yeniyetmə oğlanlara, xüsusilə onların emosional təfəkkürlərinə mənfi təsir göstərir. Özləri də bilmədən, hiss etmədən qadın müəllimlərin hərəkətlərini yamsılayırlar. Bu cür oğlan uşaqlarında kişilərə xas qətiyyət, konkretlik azalır, əvəzinə onlarda həssaslıq, duyğusallıq meydana gəlir. Belə yeniyetmələrdə mənlik şüuru aşağı səviyyədə olur. Gələcəyin kişisini yetişdirməkdə ancaq qadın psixologiyasının rol oynaması arzuolunan hal deyil.

Kişi və qadın müəllimləri müqayisə etsək, kişi müəllimləri daha ciddi, tələbkar olurlar. Qadın müəllimlər isə daha qayğıkeş, yumşaq qəlbli olurlar.

Dədə Qorqud dastanından misal gətirək ki, Bamsı Beyrək oğlu Turalın əlində qılınc tutmaq əvəzinə gül tutmasından narahatçılığını bildirir. Biz də bu gün yeniyetmə oğlanlarda qadın xarakterinin müşahidə olunmasından narahat olmalıyıq. Buna görə də kişi müəllimlər məktəblərə cəlb olunmalıdır. Bunun yollarından biri də müəllimlərin məvaciblərinin artırılmasıdır.

Elə fənn yoxdur ki, qadınlar onu tədris edə bilməsin, lakin indi ailələrdə "tək valideyn" modeli getdikcə artmaqdadır. Ona görə də yeniyetmələr heç olmasa məktəbdə kişi cinsindən olan şəxslə ünsiyyətdə olmalı, onun xarakterini mənimsəməlidir.

Təhsil ocaqlarında kişi müəllimlərinin azlığı nəinki yeniyetmə oğlanların, hətta yeniyetmə qızların da tərbiyəsində öz təsirini göstərir. Yeniyetmələr günün çox hissəsini məktəbdə keçirirlər. Evə gəldikdə isə atalarını əksər hallarda axşam görmək imkanı yaranır.

Hər bir şagird etiket qaydalarının əksəriyyətini məktəbdə öyrənir. Beləliklə, bu cür halda yeniyetmə oğlan və qızlar əks cinslə necə münasibət qurmağı bilmirlər.

Qadın müəllimlər də cinsi tərbiyəni düzgün qursa, yeniyetmələrə kişi obrazını, mərdliyi, cəsarəti düzgün aşılasa bu qədər problem yaranmaz. Yəni qadın müəllimlər də öz növbəsində yeniyetmə oğlan və qızlarda mentalitetimizə uyğun, cəmiyyətin qəbul etdiyi şəkildə gender rolları formalaşdırmalıdırlar. Müəllimlər yeniyetmələrin cinsi tərbiyəsində, həmçinin əks cinsə hörmətlə yanaşmağı, onlara dəyər verməyi, davranışlarında məsuliyyəti hiss etməyi də aşılamalıdırlar (9).

Beləliklə, məktəb mühitində yeniyetmə oğlan və qızlarda gender rollarının formalaşmasında müəllim ilk növbədə aşağıdakılara diqqət yetirməlidir:

- Yeniyetmələrin psixi proseslərinin inkişafını və imkanlarını müəyyənləşdirməli;
- Yeniyetmə oğlan və qızların inkişaf dinamikasını, davranışını, təlim müvəffəqiyyətini daim izləməli, düzgün tədbirlər görməli;
- Yeniyetmə oğlan və qızların cinsi xüsusiyyətlərini nəzərə almaqla özünün qarşılıqlı münasibətlərini buna uyğun qurmalı;

- Yeniyetmə oğlan və qızlar arasında qarşılıqlı münasibətlərin qurulmasında onlara yardımçı olmalı;

- Öz davranışını, rəftarını, mimikasını, jestini, intonasiyasını, verbal ünsiyyətini, münasibətini və s. öz cinsinə müvafiq şəkildə həyata keçirməli;

- Özünün geyim tərzini, xarici görkəmini və s. öz cinsinə müvafiq müəyyənləşdirməli.

Yeniyetmənin sosiallaşması prosesində ailədən sonra əvəzedilməz bir önəmə malik olan məktəb bu prosesdə ikinci mühüm amildir. Kurikulum əsasında yazılmış dərsliklərin məzmunu və müəllimlərin ənənəvi dəyərlərə olan ümumi münasibəti bu istiqamətdə həlledici təsir göstərir. Məktəb dərsliklərində, xüsusilə yeniyetmələrə sistematik şəkildə kişi və qadının necə olduğu öyrədilir. Dərsliklərdə qadınlara ictimai həyatda passiv və kişilərə isə aktiv şəxsiyyətlər kimi yanaşılır. Dərsliklərdə qadınlar daha çox ev işləri ilə, uşağa baxan kimi təsvir edilirlər. Kişilər isə demək olar ki, həmişə müəyyən problemlərin həllində qərar verən insan kimi təsvir olunurlar. Məsələn, ana ev işləri ilə məşğuldur, qızı isə balaca qardaşına baxır, ata nəyisə təmir edir, oğlu da ona kömək edir.

Müasir dövrdə yeniyetmə oğlan və qızlarda cinslərinə müvafiq, düzgün gender rollarının formalaşmasında məktəb psixoloqunun da rolu böyükdür. Belə ki, məktəb psixoloqu bu məsələdə məktəb və ailənin qarşılıqlı təsirini həyata keçirə bilər. Çünki hər bir yeniyetmə müxtəlif ailədən gəlir, fərqli mühitdə yetişib, tərbiyə alıblar. Məhz bu amillər yeniyetmələrdə gender rollarının formalaşmasında nəzərə alınmalıdır. Buna görə məktəb psixoloqu hər bir yeniyetmənin hansı ailədən gəldiyini, necə mühitdə yetişdiyini öyrənməli və onların müəllimləri ilə bu istiqamətdə düzgün iş aparmalıdırlar.

**Problemin aktuallığı.** Məktəb mühitində yeniyetmə oğlan və qızlarda gender rollarının formalaşmasına müəllimlərin bir rol modeli kimi psixoloji təsirinin müəyyənləşdirilməsi və düzgün istiqamətləndirilməsi müasir dövr üçün aktuallıq kəsb edir.

**Problemin yeniliyi**. Məqalədə məktəb mühitində yeniyetmə oğlan və qızlarda gender rollarının formalaşmasına müəllim modelinin psixoloji təsiri ətraflı şəkildə şərh olunmuşdur.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə irəli sürülən təklif və nəticələr müəllim-şagird münasibətlərinin yenidən qurulmasında, yeniyetmələrdə düzgün gender rollarının formalaşdırılmasında nəzərə alına bilər.

Məqalə “Ümumi psixologiya” kafedrasının 20 dekabr 2017-ci il tarixli iclasında (protokol № 9) müzakirə edilmiş və çapı məsləhət görülmüşdür.

## ƏDƏBİYYAT

1. Abbaszadə N.C. Gender probleminin psixoloji aspektləri: Mühazirələr kursu. Bakı: Qərb Universitetinin Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2002.
2. Əlizadə. Ə.Ə. Uşaqlar və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası. Bakı, 2009.
3. Əfəndiyeva Ü.A. Əsrin gender konsepsiyası, dərs vəsaiti. Bakı, 2017.
4. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006.
5. Əzimli. Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Nurlan, 2008.
6. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2008.
7. Maccoby E.E. Psychology and gender differences / Stanford University. 1995.
8. Шон Берн. Гендерная психология. Санкт-Петербург, 2001.
9. http://aztehsil.com/psixoloq/896-kii-v-qadn-mllimlrinin-psixoloji-xsusiyytlri.html